**Pərakəndə ticarət dövriyyəsi haqqında**

2024-cü ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 42,7 milyard manatlıq, o cümlədən 23,5 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 19,2 milyard manatlıq qeyri-ərzaq malları satılmışdır. 2023-cü ilin yanvar-sentyabr ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,6 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 1,8 faiz, qeyri-ərzaq malları üzrə 5,7 faiz artmışdır.

Hesabat dövründə əmtəə bazarı aşağıdakı göstəricilərlə xarakterizə olunmuşdur:

| Məhsul qruplarının adları | Satışdan gəlir, milyon manat | 2023-cü ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | 42 700,4 | 103,6 |
| *o cümlədən:* | | |
| ərzaq məhsulları | 21 586,4 | 101,9 |
| içkilər və tütün məmulatları | 1 882,2 | 100,8 |
| toxuculuq məhsulları, geyim və ayaqqabılar | 5 837,3 | 104,9 |
| elektrik malları və mebellər | 2 162,9 | 105,1 |
| kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsulları | 524,0 | 126,0 |
| əczaçılıq məhsulları və tibbi ləvazimatlar | 936,8 | 100,7 |
| avtomobil benzini və dizel yanacağı | 2 430,9 | 106,3 |
| digər qeyri-ərzaq malları | 7 339,9 | 105,8 |

2024-cü ilin yanvar-sentyabr aylarında alıcıların pərakəndə ticarət şəbəkəsində aldıqları mallara xərclədiyi vəsaitin 50,6 faizi ərzaq məhsullarının, 4,4 faizi içkilər və tütün məmulatlarının, 13,7 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,7 faizi avtomobil benzini və dizel yanacağının, 5,0 faizi elektrik malları və mebellərin, 2,2 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,2 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 17,2 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.

**2024-cü ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət dövriyyəsinin strukturu**




Hesabat dövründə qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış malların dəyəri əvvəlki ilin eyni dövrü ilə müqayisədə real ifadədə 3,6 faiz artaraq ümumi pərakəndə ticarət dövriyyəsinin 99,7 faizini təşkil etmişdir.

2023-cü ilin yanvar-sentyabr ayları ilə müqayisədə 2024-cü ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 9,8 faiz, fərdi sahibkarlar üzrə 0,6 faiz, bazar və yarmarkalarda 2,3 faiz artmışdır.

Hesabat dövründə pərakəndə ticarət şəbəkəsində əhalinin bir nəfəri orta hesabla ayda 465,2 manatlıq, o cümlədən 255,7 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 209,5 manatlıq qeyri-ərzaq malları almışdır.

***Əlaqə telefonu: 377 10 70 (22-60)***